


# Azərbaycanın strateji mövqeyi getdikcə möhkəmlənir

***Prezident İlham Əliyevin Brüsseldə işgüzar səfərdə olarkən dekabrın 15-də İtaliyanın "İl Sole 24 Ore" qəzetinə müsahibəsində Ermənistanın baş naziri və Avropa İttifaqı (Aİ) Şurasının Prezidenti Şarl Mişellə görüşü, Aİ-nin bu yaxınlarda Ermənistan və Azərbaycana dəstək paketində nəzərə çarpan böyük fərq, minaların təmizlənməsi kimi çox həssas, vacib və strateji fəaliyyətə bu beynəlxalq qurumun münasibəti, habelə Qarabağ münaqişəsi dövründə Minsk qrupunun rolu məsələləri barədə dolğun məlumatı dünya ictimaiyyətinin obyektiv məlumatlandırılması baxımından mühüm önəm daşıyır.***

Dövlətimizin başçısı müxbirin regional müstəvidə cərəyan edən hadisələr fonunda Azərbaycanın təbii qaz ixracı ilə bağlı necə fəaliyyət göstərəcəyi sualını da ətraflı şəkildə cavablandırıb. Yeri gəlmişkən, qeyd edək ki, Azərbaycanın təbii qaz strategiyası hər zaman çox aydın və açıq olub. Azərbaycan uzun illər ərzində Cənub Qaz Dəhlizi kimi mühüm bir layihəni həyata keçirmək üçün çox iş görüb, tərəfdaşlarla səmərəli fəaliyyət göstərib. Nəticə uğurlu olub. Uzunluğu 3500 kilometr olan bu dəhliz Bakıdan başlayıb və Adriatik dənizinin dibi ilə, həmçinin yüksək dağlıq ərazilərdən keçərək İtaliyaya çatdırılıb. Azərbaycan texniki baxımdan çox mürəkkəb və əlbəttə ki, çox bahalı Cənub Qaz Dəhlizi layihəsinin 4 seqmentinin hər birində əsas maliyyə yükünü öz üzərinə götürüb. Ötən ilin dekabrında layihənin tam başa çatmasından əvvəl ölkəmiz artıq istehlakçılarla müqavilələr imzalayıb. Azərbaycan qazı müqavilə əsasında alınıb və qiymətlə bağlı sonradan, hətta qaz böhranı zamanı heç bir dəyişiklik edilməyib.

***(ardı 4-cü səhifədə)***

# Azərbaycanın strateji mövqeyi getdikcə möhkəmlənir



(əvvəli 1-ci səhifədə)

Prezident İlham Əliyev müsahibədə Azərbaycanın bu məsələ ilə bağlı gələcək planları barədə də fikirlərini diqqətə çatdırıb: “Qarşıdakı dövrdə hasilatı, eyni zamanda, ixracı artırmaq imkanı var. Lakin bu, sözsüz ki, avropalı istehlakçıların tələbindən asılı olacaq. Avropa Komissiyası bu prosesdə bizə kömək göstərdi. Biz Cənub Qaz Dəhlizinin Məşvərət Şurasını mütəmadi olaraq Bakıda Avropa İttifaqının nümayəndələri və Azərbaycanın sədrliyi ilə bir araya gətirirk. Növbəti sessiya gələn ilin fevralında keçiriləcək, orada biz bütün məsələlərlə məşğul olacağıq və gələcək addımlarımızı planlaşdıracağıq. Bu, şirkətlərin, bankların və ölkələrin böyük bir qrupudur. İndi komanda böyüyür, çünki biz artıq Avropanın təchizatçısı olmuşuq. Yanvarın 1-dən başlayaraq biz İtaliya, Yunanıstan və Bolqarıstanı 7,2 milyard kubmetr qazla təchiz etmişik. Gələn il bu, 9 milyard, 2023-cü ildə azı 11 milyard kubmetr olacaq…”.

Dövlətimizin başçısı, eyni zamanda, diqqətə çatdırdığı rəqəmlərin ciddi artımı ifadə etdiyini, hasilatı artırmaq üçün investisiya yatırmağın vacibliyini, bunun üçün isə, ilk növbədə, istehlakçılarla müqavilələr bağlanılmasının zəruriliyini vurğulayıb. Azərbaycanın bu məsələdə heç bir çətinliyinin olmadığını qeyd edən dövlətimizin başçısı ölkəmizdə nəhəng yataqların, yeni, müasir infrastrukturun mövcudluğunun bu planı istənilən vaxt gerçəkləşdirməyə zəmin yaratdığını bildirib.

Prezident İlham Əliyev müsahibədə müxbirin qaz təchizatının şaxələndirilməsi ilə bağlı Rusiyanın mövqeyi barədə sualına cavabında isə qeyd edib ki, bu məsələ ölkələrin liderləri arasında heç vaxt yüksək səviyyədə müzakirə olunmayıb. Bizim neft kəmərlərindən tutmuş, qaz kəmərlərinədək bütün enerji layihələrimiz regionda çox dostyana mühitdə tamamlanıb: “Bu, birincisi. İkincisi, Rusiya bizim siyasətimizə, xarici siyasətimizə, enerji siyasətimizə tam hörmət edir. Biz rəqib deyilik. Dəfələrlə qeyd etdiyim kimi, bu məsələlər bəzən süni şəkildə şişirdilir. Biz heç bir halda Rusiyanın rəqibi deyilik. Çünki Rusiya Avropanı yüz milyardlarla kubmetr qazla təchiz edir və Rusiya qazına tələbat artır. Azərbaycan yeni başlayıb və qeyd etdiyim kimi, bizim Avropaya təchizatımız 2023-cü ildə 11 milyard kubmetr olacaq və əgər yeni müqavilələrimiz olmasa, yeni hasilata investisiya yatırmasaq, bu, belə qala bilər. Ona görə də, bu, heç bir halda bizim Rusiya ilə çox müsbət və yaxşı balanslaşdırılmış münasibətlərimizdə mənfi rol oynaya bilməz”.

Dövlətimizin başçısı müsahibədə ölkə iqtisadiyyatının indiki vəziyyətinə də toxunub:

–neft və qazın ÜDM-də həcminin əhəmiyyətli dərəcədə azaldılmasına nail olunub, bununla da iqtisadiyyatın strukturu balanslaşdırılıb;

–ixracın 90 faizindən çoxunu neft, təbii qaz, neft məhsulları və elektrik enerjisi təşkil edir. Ölkə üçün bu, üstünlükdür. Çünki Azərbaycan dünya bazarına daxil olur, neft, təbii qaz, elektrik enerjisi, neft-kimya və neft məhsullarının ixracı ilə iqtisadiyyata böyük maliyyə vəsaiti gətirir;

–qeyri-energi sənayesi 20 faiz yüksəlib;

–qeyri-enerji layihələrinin ixracı 45 faiz artıb.

Bütün bu iqtisadi uğurlarla bərabər, Azərbaycan hazırda Avrasiyanın nəqliyyat habına çevilir. Bunu son illərdə respublikamızda qurulan nəhəng yol qovşağı, o cümlədən, altı beynəlxalq hava limanı və azad olunan ərazilərdə Füzuli aeroportunun istifadəyə verilməsi, daha iki belə infrastrukturun tezliklə işə salınacağı şərtləndirir.

Bütün bu uğurlar beynəlxalq reytinq təşkilatlarının hesabatlarında da öz ifadəsini tapıb. Məsələn, Davos Forumunun reytinqinə əsasən, Azərbaycan yolların keyfiyyətinə görə 27-ci, hava və dəmir yolları nəqliyyatı xidmətlərinə görə isə müvafiq olaraq 11-ci və 12-ci yerdə qərarlaşıb.

Beləliklə, Azərbaycan artıq Mərkəzi Asiyadan gələn mallar üçün tranzit ölkəyə çevrilib. Çin öz mallarını Avropa məkanlarına buradan daşımağa başlayıb. Azərbaycanın Şimal-Cənub nəqliyyat dəhlizi üzərində yerləşməsi də böyük üstünlük yaradıb. Bu dəhliz Şimali Avropa, Rusiya, Azərbaycan, İran və Fars körfəzindən keçməsi gerçəkləşib. Dəmir yolu və avtomagistral olmasından asılı olmayaraq, Şimal-Cənub dəhlizinin Azərbaycan seqmentində aparılan bütün tikinti işləri də artıq tamamlanıb.

İkinci Qarabağ müharibəsindən sonra Zəngəzur dəhlizinin fəaliyyətə başlaması üçün real imkanlar yaranıb. Bu dəhliz ilə Azərbaycandan Ermənistana və oradan respublikamızın Naxçıvan bölgəsinə, eləcə də Türkiyə və Avropaya alverişli alternativ nəqliyyat marşrutunun fəaliyyət göstərəcəyi nəzərdə tutulub.

Prezident İlham Əliyev müsahibədə Azərbaycan–İtaliya əməkdaşlığından da bəhs edib: “İtaliya nəinki təkcə Avropa qitəsində, dünya miqyasında bizim ən yaxın tərəfdaşlarımızdan biridir. Hesab edirəm ki, indi münasibətlərimiz çox yüksək səviyyədədir. Bunun göstəricisi odur ki, biz strateji tərəfdaşlıq haqqında sənəd imzalamışıq. İtaliya Azərbaycanın strateji tərəfdaşlıq haqqında sənəd imzaladığı Avropa İttifaqına üzv olan 9 dövlətdən biridir. Prezidentlərin və digər hökumət rəsmilərinin yüksək səviyyəli səfərləri olub… İtaliya bizim əsas ticari tərəfdaşımızdır. İndi isə Transadriatik boru kəmərinin istismara verilməsi ilə Azərbaycan İtaliyanın mühüm təchizatçısına çevrilib. İtaliya istehlakında Azərbaycan qazının həcmi ilbəil artacaq. Eyni zamanda, dost ölkə olaraq İtaliya bizim azad edilmiş ərazilərdə fəaliyyət göstərmək üçün dəvət etdiyimiz ilk ölkələrdən biri olub…”.

Dövlətimizin başçısının müsahibədə səsləndirdiyi bu fikirlə bağlı qeyd edək ki, düşməndən təmizlənən ərazilərdə infrastrukturun yenidən qurulması və əhalinin işlə təmin olunmasına dövlət investisiyası ilə yanaşı, yerli və xarici investisiya da cəlb edilir. Böyük quruculuq layihələrinə dost ölkələrin qoşulması siyasəti isə Azərbaycanın beynəlxalq aləmdə mövqeyini daha da möhkəmləndirir.

Prezident İlham Əliyev də çıxışlarında dəfələrlə Qarabağın bərpası məsələsinə toxunarkən, bu işə müharibə dövründə, habelə savaşdan sonrakı mərhələdə Azərbaycanı fəal dəstəkləyən dost ölkələrin cəlb edilməsinin diqqətdə saxlanılacağını bildirib.

Prezident İlham Əliyev çıxışlarının birində bu barədə deyib: “Azad edilmiş ərazilərin qardaş ölkələrlə birlikdə bərpa olunması dövründə fəal qarşılıqlı əlaqələrimizə ümid edirəm. Mən artıq demişəm ki, azad edilmiş ərazilərin bərpa olunmasına ilk növbədə və təkcə ilk növbədə deyil, ümumiyyətlə, yalnız dost ölkələrdən olan şirkətləri cəlb edəcəyik. Dünyada belə ölkələr çoxdur, lakin onların arasında elə ölkələr var ki, müharibə dövründə və müharibədən sonrakı dövrdə Azərbaycanı fəal dəstəkləyiblər”.

Bu baxımdan hazırda İtaliyanın “Maire Tecnimont Group” şirkəti ilə bərabər, digər özəl qurumları da Qarabağda aparılan bərpa proseslərində iştirak edirlər. Bir müddət bundan əvvəl dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun işğaldan azad etdiyi ərazilərdə elektroenergetika infrastrukturunun yaradılması məqsədilə “Azərenerji” ASC-nin rəhbəri Baba Rzayevlə İtaliyanın “Ansaldo Energia” şirkətinin rəhbəri Marino Guiseppenin, həmçinin İtaliyanın ölkəmizdəki səfiri Augusto Massarinin iştirakı ilə video-konfrans formatında qarşılıqlı əməkdaşlıq sahəsində təchizat müqaviləsinin imzalanması da bunun bariz ifadəsidir.

Yeri gəlmişkən, “Azərenerji” ilə “Ansaldo Energia” rəhbərlərinin İtaliyanın Azərbaycandakı səfirinin iştirakı ilə imzalanan müqaviləyə görə, Agdam, Füzuli, Kəlbəcər və Qubadlı rayonlarında inşa olunacaq dörd 110 kV-luq yarımstansiyanın avadanlıqlarla təchizatını məhz “Ansaldo Energia” şirkəti həyata keçirəcək.

Prezident İlham Əliyevin müsahibədə vurğuladığı kimi, Qarabağın bərpasına dəvət edilən dövlətlər sırasında qardaş Türkiyədən sonra ikinci yerdə İtaliya şirkətləridir: “Hazırda italyan şirkətlərinin orada icra etdiyi çoxlu layihələr var. Biz italyan memarlarını Şuşadakı tarixi abidələrimizi və məscidlərimizi bərpa etmək üçün dəvət etmişdik. Bu, çox rəmzi məna daşıyan bir jestdir, çünki Şuşa bizim üçün müqəddəs yerdir. Şuşa Azərbaycanın mədəni paytaxtıdır. Dini məkanlar isə hər kəs üçün müqəddəsdir. Bu, çox yüksək səviyyəli etimaddır. Bu yaxınlarda Şuşaya səfər edəndə işlərini necə görəcəklərini mənə nümayiş etdirən italyan şirkətlərinin nümayəndələri ilə görüşdüm. İtalyan şirkəti Bakıda Zəfər Muzeyinin tikintisinə fəal şəkildə cəlb olunub. Bu, rəmzi məna daşıyan digər bir jestdir, çünki siz bu tarixi Qələbənin bizim üçün nə qədər böyük məna daşıdığını təsəvvürünüzə gətirə bilərsiniz. Biz tərəfdaşlığımızı nümayiş etdirmək üçün və italyan şirkətlərinin yüksək səviyyəli fəaliyyətini, zövqünü və ölkələrimiz arasında dostluq münasibətlərini nəzərə alaraq, məhz buna görə italyan şirkətini dəvət etdik”.

Dövlətimizin başçısı daha sonra italyan şirkətlərinin Azərbaycanın digər yerlərində də çoxsaylı tikinti layihələrinin icrasında fəal rol oynadıqlarını bildirib. Ölkə rəhbəri bununla bağlı Prezident Mattarellanın respublikamıza səfəri zamanı italyan şirkəti tərəfindən tikilmiş neft-kimya zavodunun açılışı mərasimində birlikdə iştirak etdiyini xatırladıb. Dövlətimizin başçısı hazırda eyni şirkətin Azərbaycanın neft emalı zavodunun yenidən qurulmasına fəal qoşulduğunu da diqqətə çatdırıb.

*Vaqif BAYRAMOV, “Xalq qəzeti”*